Azərbaycan.- 2021.- 7 aprel. S. 7.

# Silahlı Qüvvələrin Hərbi Akademiyasının hazırladığı “Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin regional aspektləri” dərsliyi çapdan çıxıb




Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının hazırladığı “Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin regional aspektləri” dərsliyi işıq üzü görüb. AZƏRTAC xəbər verir ki, nəşrdə qloballaşan dünyada, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında olduqca aktual olan təhlükəsizlik problemləri və təhdidlər tədqiqatın predmetinin əsasını təşkil edir. Dərslikdə milli təhlükəsizliyin regional aspektlərinin mahiyyəti ətrafında təhlillər aparılır. Bu zaman ənənəvi və hibrid təhdidlərə, milli maraqlara xüsusi diqqət yetirilir. Azərbaycanın milli təhlükəsizlik siyasətinin səciyyəvi xüsusiyyətləri, milli təhlükəsizlik siyasətinin regional aspektləri nəzərdən keçirilir.

Kitabın həmmüəllifləri Vüqar Məmmədzadə, Xəyal İskəndərov, rəyçiləri Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin professoru, “Dərbənd” Xeyriyyə İctimai Birliyinin sədri, “Azərbaycan Tarixçiləri” İctimai Birliyinin üzvü, tarix elmləri doktoru Nurulla Əliyev, Hərbi Akademiyanın Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru Mehman Süleymanov, elmi redaktoru siyasi elmlər doktoru Fətəli Abdullayevdir.

Nəşrin “Cənubi Qafqazda regional və milli təhlükəsizlik: real təhdidlər kontekstində” adlı birinci fəslində təhlükəsizlik anlayışlarının nəzəri müqayisəsi, “Hibrid müharibələr və Ermənistanın Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı hibrid təhdidləri” adlı ikinci fəslində hibrid müharibələrinin aparılmasını şərtləndirən amillər, bu müharibənin konseptual kontraksiyası, Ermənistanın Azərbaycana qarşı hibrid təhdidləri ilə bağlı məsələlərə yer ayrılıb.

“Cənubi Qafqazın regional təhlükəsizliyi və Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları” adlı üçüncü fəsil Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdidlərə, “Cənubi Qafqazda böyük güclərin toqquşan geostrateji maraqlarının regional təhlükəsizliyə təsiri” adlı dördüncü fəsil regional təhlükəsizlik mühitinə dair məsələlərə həs olunub.

Dərslik Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri, bakalavr, magistr, adyunkt, zabit və pedaqoqları üçün nəzərdə tutulub.